# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 207** **Bakı şəhəri, 15 iyul 2021-ci il**

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasna-mənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 aprel tarixli 1322 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1811; 2020, № 11, maddə 1408) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "9" rəqəmi "11" rəqəmləri ilə əvəz edilsin.
2. "Kollegiyanın üzvləri" bölməsində birinci-səkkizinci abzaslar ikinci-doqquzuncu abzaslar hesab edilsin və aşağıdakı məzmunda birinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***